# ÇANAQQALA SAVAŞININ YÜZ İLLİK ANIMINA

Milli Qəhrəmanlar —dəyişən dünyaya qarşı dəyişməməyi gərəkli edən milli müqəddəslərin savaşını davam etdirənlərdir. Bəli, böyük millətlərin ürəyi də, dünyası da, düşmənləri də böyük olur. Bu baxımdan türklər tarixin ən hərəkətli toplumudur. Onlar tarix səhnəsində ardıcıl və coşqun bir hərəkət içində olublar. Bu hərəkətlilik yaşama gücünün yüksəkliyini göstərdiyi kimi, eyni zamanda türklüyü bəsləyən əsas faktor olmuşdur. Türklərin hələ Osmanlı imperiyası qurduqları torpaqlarda milliyyətindən, dinindən asılı olmayaraq yerli əhali arasında çox yayılan bir ifadə vardır: "Ah, nolaydı, Osmanlı (türklər) daha əvvəl gələydi, bizlərə bəy olaydı..." Bu içdən gələn ortaq ifadə Osmanlı türklərinin insanlığını, iman ölçülərinə sədaqətini göstərir.

İnsan, toplum hansı dünyagörüşü ilə köklənirsə, yəni hansı fitri özəlliyi qəbul edirsə, davranışları da ona görə təzahür edir. Tanrıya iman qüvvətli olursa, əməllər də o inancların ölçülərinə görə gerçəkləşir. Bu, millətin, toplumun üslub, yaşama bütünlüyünü təşkil və təmin edir. İman, inanclar zəifləyəndə yalanların şiddəti artır. Yəni iman, toplumun inanc —özgüvən sisteminin sütunudur. Ərəblər bir zamanlar dünyaya meydan oxuyub çox torpaqları tutdular. Amma inancları zəiflədikdən sonra potensial güclərini itirdilər. Hətta nə qədər zəngin olsalar da... Mədəniyyəti quran gücü hərəkətə keçirən və artıran toplumun inancıdır və bu olduqca böyük meyardır.

Məşhur tarixçi Hemmer 170 il öncə söyləmişdir:"Bir gün Osmanlı imperatorluğu çökərsə, Orta Doğu və Balkanlardakı millətlər çox acı çəkəcək, dünyanın parçalanmalarından doğan məsələlər çətin çözüləcək".

Türk tarixi bu millətin meydana gətirdiyi qəhrəmanlıqların çoxluğunu onun dastanları ilə təsdiq edir. İnsan həyatı varlığını sürdürmək üçün təbii ki, mücadilədən keçməlidir. Amma bu mücadilənin toplum içində təqdirlə qarşılanması üçün fərdi plandan çıxıb, toplumu ilgiləndirən amal, qayə və xüsusi yüksək dəyərlər uğrunda yürüdülməsi vacibdir.

İnsanın müqəddəs qəbul etdiyi dəyərlər uğrunda verdiyi mücadilələr şəxsi mücadilələrdən daha üstün məna daşıyır və məhz belə mücadilələr qəhrəmanlıq örnəkləridir. Əski türklərin bir çox millətləri də ilgiləndirən mücadilələrdən uğurla, qalibiyyətlə çıxdıqdan sonra qalıcı, unudulmaz adlar aldıqları da göz önündə tutulduğunu nəzərə alsaq, qəhrəmanlıq ideyasına necə yüksək dəyər verildiyini açıq görərik. Bü fədakarlıqlar arasında, heç şübhəsiz ki, ilk sırada Vətən gəlir. Vətən mövzusu, Vətən dəyəri, qəhrəmanlığı türkün fədakarlığında bənzərsiz yer tutur.

Böyük hərblər, savaşlar və fəlakətlər qarşısında türk qəhrəmanlığına dünya şahiddir. 1853-1856 Krım savaşı, 1878 Türk-Rus savaşı, 1897 Türk-Yunan savaşı, Balkan savaşları, I Dünya Hərbi və milli mücadilənin davamı...

XX əsr türk xalqlarının ictimai-siyasi həyatına keşməkeşli və olduqca ciddi dəyişikliklərlə zəngin olan tarixi bir dövr kimi daxil oldu. Yarımmüstəmləkə vəziyyətinə düşmüş Osmanlı imperiyası rəsmi olaraq dünya xəritəsindən silindi.

I Dünya müharibəsinin başlanması ərəfəsində imperialist dövlətlər Sultan Türkiyəsini öz aralarında bölüşdürmək haqqında danışıqlara başladılar. Onların öz aralarında 1915-1917-ci illərdə bağladıqları sazişlər imperiyanın, demək olar ki, bütün torpaqlarının əlindən alınmasını və bölüşdürülməsini nəzərdə tuturdu. Şərq vilayətləri Rusiyaya keçməli, Suriya və ətrafı Fransaya verilməli, Mesopotomiya, habelə İzmir—Aydın dəmir yollarının keçdiyi ərazilər ingilislərin ixtiyarında olmalı, Anadoluya isə almanlar sahib çıxmalı idi. Mesopotomiyadakı torpaqlarını və Şərqi Fransadakı ərazilərinin əksərini itirmiş (Türkiyədə şərti olaraq saxlanmış İstanbul və ətrafından başqa), İzmir isə əslində Yunanıstana verilmişdi. Ermənistana müstəqillik verilməsi və onun ərazisinin Ərzurum, Van, Trapezuid və Bitlis rayonlarına qədər genişləndirilməsi nəzərdə tutulmuşdu. Türkiyəyə yalnız Mərkəzi Anadolu qalırdı. Yəni Türkiyə əslində müstəqil dövlət kimi varlığını itirirdi. Təbii ki, bunlar Osmanlı imperiyasının parçalanmasından sonrakı mərhələ idi və çox amansızlığı ilə fərqlənirdi. Belə olan vəziyyətdə Türkiyənin "Ya istiqlal, ya ölüm!" deməkdən başqa yolu qalmadı.

Bax, bu ağır zamanlarda Mustafa Kamal meydana çıxdı. O, milliyyətçilik fonunda məhz vətənsevərlik xəttini haqlı olaraq qabartdı. O da var ki, Atatürkçülükdə (buna Kamalizm də deyirlər) milliyyətçilik anlayışı xalqçılıq prinsipi ilə sıx əlaqəlidir, irqçiliklə deyil. Atatürkün düşüncəsində milli hərəkatın əsas məqsədi xalqın hegemonluğuna, xalqın iradəsinə əsaslanan bir hökumət yaratmaq idi. Lakin professor Kamal Karpatın da göstərdiyi kimi "millətçilərin düşüncəsinə görə" müsəlmanlıqda istifadə edilən bir ərəb dili idi, özünün mahiyyətinə görə respublikanın (türk cümhuriyyətçilik ideyasının) məqsədlərinə zidd idi. Ona görə də Mustafa Kamal bir sıra islahatlar keçirməyə məcbur oldu.

Atatürk deyirdi: "Din — vicdan məsələsidir. Hər kəs vicdanının səsini eşitməkdə sərbəstdir. Biz dinə hörmət edirik. Düşüncəyə müxalif deyilik. Biz sadəcə dini işləri milli və dövlət işlərinə qarışdırmamağa çalışır, kasta (kriminal və s. qruplaşma —red.) və digər cinayətkar fəaliyyətlərə əsaslanan fanatizmi qəbul etmirik".

Türkiyənin o zamankı azman şairi Məhməd Akif Atatürkün yeniliyini dəstəkləyib, hər şeyi Allahdan gözləyərək, hərəkət etməyənləri qınayırdı.

İllərcə, əsrlərcə sürən uyqudan artıq,
Silkin də mühitindəki zülmləri yak, yık.
Bir baxsana, göylər oyanıq, yer oyanıqdır,
Dünya oyanıqkən, yatmaq bir maskaralıqdır.

Türkiyə Cümhuriyyətinin prezidenti Rəcəb Tayyib Ərdoğan qondarma, saxta erməni soyqırımının 100 illiyi qarşısına Türkiyənin ölüm və ya olüm məsələsi olan Çanaqqala savaşının 100 illik şərəfli tarixini çıxardı. Və bir çox ölkə başçılarını bu zəfər gününə—anım mərasiminə dəvət etdi.

Yazımın sonunda zəfərli Çanaqqalaya həsr etdiyim şeiri oxuculara təqdim edirəm.

## ÇANAQQALA

***(Məhmətçiyin dilindən)***

Şanlı Vətən, gəlmişəm uğrunda can verməyə,
Mənim də yaz adımı ölüb, ya öldürməyə,
Düşmənimi qoymaram, Mərmərəyə girməyə.
Vicdanım dözə bilməz yadlar yurdumu ala,
Biz səni tapdaq yeri etmərik, Çanaqqala!

Savaşır qardaşlarım, babam, qohum-əqrəbam,
Sənin üçün atılıb döyüşə elim, obam,
Niyyətim, əməlimlə, Haqdan gələn savabam.
Peyğəmbərə salavat, Yaradana həmd ola,
Biz səni tapdaq yeri etmərik, Çanaqqala!

Səslədin, biz də gəldik, başına dolanmağa,
Təpədən-dırnağacan al-qana boyanmağa,
Ən zor durumlarında hazırıq sınanmağa.
Türkün savaş tarixin sən də yaz və xatırla!
Biz səni tapdaq yeri etmərik, Çanaqqala!

Oğul, Vətən bağının özəllikləri vardır,
Vətən anadır, oğlu ona hey minnətdardır!
Türkə savaş açanın dünya başına dardır!
Qoymarıq ki, adında möhnət, nə töhmət qala!
Biz səni tapdaq yeri etmərik, Çanaqqala!

**Əli Vahid Çaylı.**